***Ədalətlilik və xeyirxahlıq, ilk növbədə, insanın özünün özünə verdiyi dəyərin ifadəsi, mənəvi rahatlığa, könül xoşluğuna səbəb olan ən vacib əməldir. Özün daxilən sakit və rahat deyilsənsə, ruhi müvazinətini itiribsənsə, bədbin fikir və duyğularla yüklənmisənsə, yaxşılığa, xeyirxahlığa doğru addım atmağın çətin işdir. Düşüncə və mənəviyyatı işıqlı, daxili dünyası harmoniyalı olan, haqqı-ədaləti qorumağı bacaran insanın siması daim nur saçır, çöhrəsində sanki günəş bərq vurur. Belə insanlardan biri də təcrübəli və tanınmış hüquqşünas, dəyərli şəxsiyyət Mahir Cümşüd oğlu Muradovdur. Bu aqil, nurani insanın haqqında ürək sözümü deməyə, mənalı ömür yolu, insani keyfiyyətləri, peşəkarlığı, xeyirxahlığı barədə bu qeydlərimi yazmağa mənəvi bir ehtiyac hiss etdim.***

# Ömrün mənası: ədalət və xeyirxahlıq



Ədəb və əxlaqın, yetkin mənəviyyatın ailə ənənələrinə bağlı olması, kökdən, nəsil-nəcabətdən gəlməsi bəşər tarixinin təsdiqlədiyi həqiqətdir. Mahir müəllimin atası, ölkəmizin elmi-ədəbi ictimaiyyətinin yaxşı xatırladığı, AMEA-nın N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində uzun illər səmərəli fəaliyyət göstərmiş şərqşünas Cümşüd Muradov hamının yadında təkcə öz işinin əsl peşəkarı kimi deyil, həm də dostcanlı, xeyirxah, vətənpərvər bir insan, yüksək mənəvi-əxlaqi məziyyətləri olan şəxsiyyət kimi qalıb. Uzun və mənalı ömür yaşayan Cümşüd müəllim haqqında həmkarı, görkəmli şərqşünas alim, akademik Rafael Hüseynovun səmimi və maraqlı xatirələri onun nəcibliyini, alicənablığını, el-obaya bağlılığını, tarixi keçmişimizə göstərdiyi qayğıkeşliyi tam aydınlığı ilə əks etdirir. 93 yaşında dünyasını dəyişmiş Cümşüd müəllim, hörmətli akademikin sözləri ilə desək, Allahın əta etdiyi ömür illərini və taleyin yaratdığı imkanları daim yaxşılıq etmək fürsəti kimi dəyərləndirib və gümrah keçirdiyi qocalıq dövründə də millətəxeyir yeni əməllərə imza ata bilmək üçün əzmkarlıq göstərib.

Böyük qırğız yazıçısı Çingiz Aytmatov deyirdi: "Xeyirxahlıq yola tökülməyib ki, təsadüfən tapasan. Xeyirxahlığı insan insandan öyrənir". Bu mənada, ailə ənənlərindən, ata-babadan ona miras qalan xeyirxahlıq, mərhəmət kimi yüksək insani keyfiyyətləri Mahir müəllim daim öz işində, əməllərində nümayiş etdirir. O əmək fəaliyyətinə on yeddi yaşında başlayıb və müxtəlif sahələrdə, o cümlədən, ədliyyə sistemində çalışmaqla yanaşı, ali təhsil alıb, hüquqşünas ixtisasına yiyələnib və ömrünü haqqın, ədalətin qorunmasına, qanunçuluğun təmininə həsr edib. Prokurorluq orqanlarında stajorluqdan rayon prokuroru vəzifəsinədək yüksəlib. Paytaxtın iri sənaye mərkəzlərindən olan Nizami rayonunda səkkiz il prokuror vəzifəsində işləyib. Prokurorluq sistemində öz peşəkarlığı ilə fərqlənib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2006-cı il tarixli sərəncamına əsasən, qanunun aliliyinin təmin edilməsində, ağır və xüsusilə ağır cinayət işləri üzrə ibtidai istintaqın aparılmasında, cinayətlərin açılmasında və məhkəmədə dövlət ittihamının müdafiəsində yüksək peşəkarlıq göstərdiklərinə, xidməti vəzifələrinin yerinə yetirilməsində fərqləndiklərinə və prokurorluq orqanlarında xüsusi xidmətlərə görə təltif edilənlərdən biri də Mahir müəllim olub və "Dövlət qulluğunda fərqlənməyə görə" medalına layiq görülüb.

Bəzən hüquqşünas tutduğu vəzifənin tələblərinə uyğun olaraq, çox sərt, qətiyyətli və barışmaz mövqedə olmalı, qanunun aliliyini təmin etmək üçün ağır cəza tədbirlərinə əl atmalıdır. Mahir müəllim də vəzifə səlahiyyətləri çərçivəsində məhz belə prinsipiallıq göstərən, lakin heç vaxt haqqı nahaqqın ayağına verməyən, ədalət hissini qoruyub saxlayan, humanizm prinsiplərinə daim sadiq qalan, mərhəmət və xeyirxahlıq duyğusu ilə seçilən hüquqşünaslardandır. Həm də həmkarlarını, xüsusən, gənc iş yoldaşlarını öz nümunəsi ilə məhz vəzifə səlahiyyətləri və insanpərvərlik arasında harmoniyanı tapmağa sövq edən təcrübəli, dünyagörmüş hüquqşünasdır.

Mən birgə iş şəraitində bu gözəl məziyyəti onun əməlində, fəaliyyətində şəxsən görmüşəm, bu faydalı təcrübəni əxz etməyə çalışmışam. Gənc həmkarlarının təkcə kamil mütəxəssis, öz işinin peşəkarı kimi yetişməsinə deyil, həm də cəmiyyət qarşısında məsuliyyətini dərindən dərk edən ləyaqətli vətəndaş olmasına xüsusi diqqət yetirən Mahir müəllimin məsləhət və tövsiyələri həyat və karyera yollarında hər zaman bələdçim olub. Böyük ictimai nüfuzuna, vəzifə iyerarxiyasındakı yüksək mövqeyinə və statusuna rəğmən o hər zaman sadəliyi, təvazökarlığı, ünsiyyətcilliyi, əlçatanlığı ilə seçilib. Vətəndaşlarla münasibətində həm qanun keşikçisi və dövlət maraqlarının təmsilçisi, həm də ictimai mənafeyi qoruyan və fərdi xüsusiyyətlərə diqqətli olan vəzifə sahibi kimi tanınıb.

Mahir müəllim gənc həmkarlarına hər zaman, sözün həqiqi mənasında, atalıq qayğısı, valideyn münasibəti göstərib. Valideynlərimi erkən itirdiyim üçün mən bu münasibəti daha yaxından, daha aydın hiss etmişəm, onun köməyi, dəstəyi və nümunəsi prokurorluq kimi dərin bilik, fitri istedad və böyük məsuliyyət tələb edən bir qurumun tələblərinə uyğunlaşmağım, zəruri iş keyfiyyətləri qazanmağım üçün sanki işıqlı bir mayak, yolgöstərən olub. Prokurorluq orqanlarında stajor kimi fəaliyyətə məhz Mahir müəllimin rəhbərliyi altında başlamışam və bunu da taleyimin bir hədiyyəsi kimi dəyərləndirir, daim hörmət və ehtiramla xatırlayıram. Ümumiyyətlə, birgə iş şəraitində mən onun insan taleyinə nə qədər diqqətli və həssas yanaşdığının şahidi olmuşam. Münaqişə tərəfləri arasında qarşılıqlı güzəştə və barışığa nail olmaq, həm hüquqşünas, həm də geniş dünyagörüşlü, müdrik bir insan kimi hər kəsə doğru yol göstərmək, ən mürəkkəb situasiyalarda düzgün qərarlar qəbul etmək Mahir müəllimin xarakterik xüsusiyyətləridir. O, hətta cinayət törətmiş insanlarda belə, müsbət, işıqlı cəhətlər axtarıb tapmağa çalışır, bizə də bunu tövsiyə edirdi. Hüquqazidd davranışına görə məsuliyyətə cəlb edilən şəxsin islah olunması, yenidən cəmiyyətə qaytarılması üçün onda şəxsi ləyaqət hissini oyatmaq vacibdir – Mahir müəllim bizə bunu öyrədib. O, sağlam ailə münasibətlərini cəmiyyətin inkişafı üçün mühüm amil kimi dəyərləndirərək, öz nüfuzu və ağsaqqal sözü ilə neçə-neçə ailənin dağılmasının qarşısını alıb. Mən bunun da şahidi olmuşam.

Hər bir sahədə peşəkar, etibarlı, tabeliyindəki əməkdaşların inam və güvənc yeri ola bilən rəhbərlə işləmək insana mənəvi rahatlıq, yorulmazlıq, işgüzarlıq hissi bəxş edir. Məhz bu xüsusiyyətləri ilə Mahir müəllim rəhbərlik etdiyi kollektivdə sağlam münasibətlər, qarşılıqlı hörmət və ehtiram mühiti yaradıb.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təqdimatı əsasında, 16 oktyabr 2012-ci ildə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi ilə Mahir Muradovun peşəkar karyerasında yeni və daha şərəfli bir mərhələ başlanıb. Artıq on ilə yaxındır ki, təcrübəli hüquqşünas ölkəmizin ali konstitusiya nəzarəti orqanında fəaliyyət göstərir, ölkəmizdə qanunlara hörmət və ehtiramın, ədalət, azadlıq və humanizm kimi prinsiplərin möhkəmləndirilməsində iştirak edir.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış və 1998-ci il iyulun 14-də fəaliyyətə başlamış Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi ölkəmizin əsas qanununda təsbit olunmuş ali məqsədlərin gerçəkləşməsinə, cəmiyyətimizdə hüquqi maariflənmənin və hüquq mədəniyyətinin inkişafına mühüm töhfələr verir. Bu orqan hüquq elminin nəzəriyyə və təcrübəsinə, milli və müstəqil dövlətçilik irsimizə dərindən bələd olan hüquqşünaslardan ibarətdir. Dövlətimizin başçısının Mahir müəllimə göstərdiyi etimad onun da bu sahədəki bilik və təcrübəsinə verilən dəyərin ifadəsidir. Bu yüksək qiymətin daha bir parlaq təzahürü altmış illik yubileyi ərəfəsində, 2016-cı il iyulun 20-də möhtərəm Prezidentin sərəncamı ilə, respublikamızın prokurorluq və məhkəmə hakimiyyəti orqanlarında səmərəli fəaliyyətinə görə ona "Əməkdar hüquqşünas" fəxri adının verilməsi olub. Bundan başqa, müstəqil dövlətçilik ənənələrimizin qorunmasında və inkişaf etdirilməsindəki xidmətlərinə görə, Mahir müəllim "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918 - 2018)" yubiley medalı ilə təltif edilib.

Ulu öndər Heydər Əliyevin milli dövlətçilik ideyalarına, möhtərəm Prezidentimiz İlham Əliyevin bu ideyalara əsaslanan siyasətinə sədaqətlə xidmət etmək Mahir müəllimin həyat və fəaliyyətinin başlıca qayəsidir. O, hər zaman bir vətəndaş kimi cəmiyyət qarşısında, bir peşəkar hüquqşünas kimi dövlət qarşısında üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir, ölkəmizin konstitusiya əsaslarının möhkəmləndirilməsi üçün məsuliyyət və əzmkarlıqla çalışır. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsindəki səmərəli fəaliyyəti ilə Mahir müəllim bu ali ədalət mühakiməsi orqanının apardığı olduqca mühüm və faydalı hüquqi tənzimləmə işində, hüquqi dövlətin ayrılmaz atributu olan insan hüquq və azadlıqlarının qorunmasında fəal iştirak edir.

Yaxşı bilirəm ki, möhtərəm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli hərbi-siyasi və diplomatik fəaliyyəti, sərkərdəlik istedadı, rəşadətli ordumuzun hünəri, şücaəti sayəsində, qəhrəman şəhidlərimizin qanı bahasına, xalqımızın birliyi hesabına 44 günlük Vətən müharibəsində erməni faşizmi üzərində qazanılan tarixi qələbə, Azərbaycanın ərazi bütövlüyünün bərpası, torpaqlarımızın işğaldan azad edilməsi Mahir müəllimi necə hədsiz dərəcədə, ürəkdən qürurlandırır, fərəhləndirir. Axı ərazi bütövlüyü məsələsi ölkəmizin əsas qanununda təsbit edilmiş ən mühüm müddəalardan biridir və möhtəşəm zəfər konstitusiyamızın tələbinin tam yerinə yetirilməsini, eyni zamanda, doğma yurdundan didərgin düşmüş, otuz ilə yaxın məcburi köçkünlüyün əzab-əziyyətini yaşayan vətəndaşlarımızın konstitusiya hüquqlarının bərpasını təmin edir.

Mahir müəllim o şəxsiyyətlərdəndir ki, öz əməli, həyat prinsipləri ilə işinə, peşəsinə, vəzifəsinə hörmət və nüfuz qazandırmaqla, xüsusən, gənc həmkarlarına böyük bir stimul verir. Özümü çox şanslı adam hesab edirəm ki, uca Tanrı mənə həyat yolumda peşəkarlığı və xeyirxahlığı ilə nümunə olan belə bir insanla birgə işləmək, ondan öyrənmək və təcrübəsini əxz etmək fürsəti verib.

***Mobil ŞƏFİYEV,***
***Bakı şəhər prokurorunun müavini***